

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 185 (23.347)

*3 oktyabr 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasına işgüzar səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Soçi Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Krasnodar vilayətinin qubernator müavini Anatoli Voronovski, Şoçi şəhərinin meri Aleksey Kopayqorodski və digər rəsmi şəxslər qarşılayıblar.



## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində sentyabr ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 21 sentyabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 15 mart tarixli 46 nömrəli Qərarında dəyişikliklər edilmişdir.

Bundan başqa, həmin tarixdə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 avqust tarixli 79 nömrəli və "Təhsil müəssisələrinin pedaqoji işçilərinin (dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər istisna olmaqla) dərs yükü normalarının müəyyən edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 yanvar tarixli 5 nömrəli qərarlarında dəyişikliklər edilmişdir.

Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 sentyabr tarixli 138 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında orta ixtisas təhsili üzrə ixtisasların (proqramların) Təsnifatı" təsdiq edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Naxçıvanın yerli tütün məhsulları beynəlxalq sərgidə təqdim olunub

*"Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyəti 2006-cı ildən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının bir müəssisəsi olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyətə başlayıb.*




Ölkəmizin iqtisadi inkişafında mühüm rol oynayan və yerli siqaret istehsalı müəssisəsi olmağı hədəfləyən "Cahan Tabak Beynəlxalq" MMC Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq tütünçülüyün inkişaf etdirilməsi, yerli siqaret istehsalı və ixracı sahələrində bir sıra tədbirlər həyata keçirib.

Cəmiyyət dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrasına uyğun olaraq yerli siqaretlərin xarici bazarlara ixracı məsələsinə xüsusi önəm verir. Məqsəd ixrac potensialını gücləndirməklə ölkəyə xarici valyuta axınını artırmaqdır. Ötən dövrdə bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, müəssisə müxtəlif biznes-forum və sərgilərdə təmsil olunub. Belə tədbirlərdən biri də 2019-cu il sentyabrın 20-22-də Almaniyanın Dortmund şəhərində təşkil edilmiş İnterTabac sərgisidir.

Qeyd edək ki, İnterTabac Dortmund dünyanın ən böyük tütün şirkətlərinin təmsil olunduğu sərgidir və "Cahan Tabak Beynəlxalq" MMC burada "Made in Azerbaijan" brendi altında ölkəmizi təmsil edib. Cəmiyyətdən aldığımız məlumata görə, müəssisə ilk dəfədir ki, bu sərgidə iştirak edir və bu il İnterTabac sərgisində dünyanın 600-dən çox tütün şirkəti təmsil olunub. Şirkət sərgidə beynəlxalq səviyyədə rəqabətədavamlı yerli siqaretlərini, Naxçıvan tütünündən hazırlanmış Azərbaycanın ilk yerli qəlyan brendi olan Shakh qəlyan tütününü və Naxçıvanda yetişdirilən Virciniya və İzmir sortu tütünlərini sərgiləyib. Sərgilənən bütün məhsullar iştirakçılar tərəfindən maraqla qarşılanıb. Xüsusilə İraq, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Ukrayna, Mərakeş, Suriya, Polşa, ABŞ, Serbiya, Tayvan kimi ölkələrdən yerli məhsullarımıza daha böyük maraq göstərilib. Artıq bu istiqamətdə danışıqlara başlanılıb və ilkin addımlar atılıb.

"Cahan Tabak Beynəlxalq" MMC bundan sonra da "Made in Azerbaijan" markalı məhsullarını dünya bazarlarında təqdim və təbliğ etməyə, o cümlədən ölkə iqtisadiyyatına töhfəsini verməyə davam edəcəkdir.

**✍ Səbuhi HƏSƏNOV**

## Muxtar respublikada kənd təsərrüfatının inkişafı diqqətdə saxlanılır

***Ölkə iqtisadiyyatının dinamik inkişafını xarakterizə edən sahələrdən biri də kənd təsərrüfatıdır. Muxtar respublikada kənd təsərrüfatı üzrə həyata keçirilən tədbirlər, qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası aqrar sahənin hərtərəfli inkişafına şərait yaradır.***

Muxtar respublikada aparılan məqsədyönlü siyasət nəticəsində əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, yeni suvarma sistemlərinin qurulması, suvarmada mütərəqqi üsullardan istifadə, əkinçilərə və fermerlərə subsidiyaların və güzəştli şərtlərlə kreditlərin verilməsi aqrar sahənin obyektiv inkişafı ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına və kənd təsərrüfatı ilə məşğul əhalinin sayının artmasına səbəb olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması cari ildə belə təsərrüfatların daha da genişləndirilməsini, əhalinin kənd təsərrüfatına olan marağının artmasını və maddi rifah halının daha da yaxşılaşdırılmasını təmin edir.

Muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsal potensialının daha da artırılması, məhsuldarlıq göstəricilərinin yüksəldilməsi məqsədilə istehsalçıların müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunması diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərə uyğun olaraq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 309 ədədi 2019-cu ilin yanvar-avqust aylarında olmaqla, ümumilikdə, 2684 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilib. 2019-cu ilin yanvar-avqust aylarında əvvəlki illərdə



gətirilən texnikalarla birlikdə 196 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə məhsul istehsalçılarına verilib.

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar kontekstində kənd təsərrüfatının dinamik inkişafı ilə bağlı atılan uğurlu addımlar məhsul istehsalının artmasına səbəb olub. Belə ki, 2019-cu ilin yanvar-avqust aylarında 109 min 760 ton dənli və dənli-paxlalılar, 1498,5 ton dən üçün qarğıdalı, 765 ton dən üçün günəbaxan, 54,6 ton tütün, 43 min 669 ton kartof, 58 min 507 ton tərəvəz, 30 min 525 ton bostan məhsulları, 28085,5 ton meyvə, 5134,7 ton üzüm istehsal olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu il dənli və dənli-paxlalılar istehsalı 5,1 faiz, dən üçün günəbaxan 2,1 faiz, tütün 2,2 dəfə, kartof 2,5 faiz, tərəvəz 1 faiz, bostan məhsulları 0,4 faiz, meyvə 8,3 faiz, üzüm 1 faiz artıb.

Aqrar sektorda çalışan fermerlərə və digər sahibkarlara dövlət tərəfindən güzəştli şərtlərlə verilən kreditlərin həcmi ilbəil artırılır. Cari ildə də bu sahə üzrə kreditlərin verilməsi davam etdirilib, ötən dövr ərzində kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 7530,8 min manat məbləğində kreditlərin verilməsi təmin olunub. Bu da bir il öncəki müvafiq göstəricidən 85,8 faiz çoxdur.

Muxtar respublikada maldarlıq və heyvandarlığın inkişaf etdirilməsi və əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsi istiqamətində bir sıra işlər görülür. Belə ki, maldarlıqda qısırlığın ləğv olunması və damazlıq heyvanların əldə olunması məqsədilə 2019-cu ilin yanvar-avqust aylarında ildə 8780 baş inək, düyə və camış süni yolla mayalandırılıb. Bu dövr ərzində həmin inək, düyə və camışlardan 5980 baş sağlam buzov alınıb. Azərbaycan Respublikası Prezidentinin "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" 2015-ci il 19 avqust tarixli Sərəncamına əsasən süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiyanın müəyyən edilməsi maldarlığın dinamik inkişafına təkan verməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Süni Mayalanma Mərkəzinin yaradılması mal-qaranın cins tərkibinin daha da yaxşılaşdırılmasına, heyvandarlıq məhsulları istehsalının artımına müsbət təsir göstərəcəkdir. Bu istiqamətdə hazırda mərkəz üçün yeni infrastruktur obyektləri yaradılır.

Muxtar respublikada aparılan məqsədyönlü siyasət nəticəsində əhalidə xüsusi mülkiyyətə münasibətin köklü dəyişməsi, fərdi sahibkarlıq fəaliyyətinin üstün istiqamət alması muxtar respublikada mal-qaranın baş sayının və il ərzində istehsal olunan kənd təsərrüfatı məhsullarının həcminin artmasını şərtləndirən əsas amillərdəndir. Bu sahədə görülən tədbirlərin nəticəsində 1 sentyabr 2019-cu il tarixə muxtar respublikada 14518,9 ton diri çəkidə ət, 68143,1 ton süd, 69 milyon 902 min 800 ədəd yumurta, 848 ton yun istehsal edilmişdir ki, bu da 1 sentyabr 2018-ci ildə olan göstəricilərdən müvafiq olaraq 3,9 faiz, 1,5 faiz, 1,4 faiz, 1,6 faiz çoxdur.

Yaradılan şəraitin nəticəsidir ki, 1 sentyabr 2019-cu il tarixə muxtar respublikada 309 milyon 144 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib ki, bu da 1 sentyabr 2018-ci ildə olan göstəricidən 3,9 faiz çoxdur.

***Kənd təsərrüfatı məhsulu, min manat***




Muxtar respublikada cari ilin "Ailə təsərrüfatları ili" elan olunması və aqrar sahənin inkişafı istiqamətində aparılan uğurlu siyasət əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasına, maddi rifah halının yaxşılaşdırılmasına, özünüməşğulluğun təmin edilməsinə və nəticədə, iqtisadiyyatın çoxyönümlü inkişafına stimul verir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması nəinki jurnalistlər, ümumilikdə, muxtar respublika ictimaiyyəti, ziyalılar tərəfindən böyük rəğbət və sevinclə qarşılandı. Çünki belə bir fondun yaradılması kütləvi informasiya vasitələrinə dövlət qayğısının növbəti ifadəsi olmaqla yanaşı, həm də muxtar respublikada informasiya idarəçiliyinin də düzgün tənzimlənməsinə xidmət edəcək mühüm siyasi addımdır. Sentyabrın 27-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüş keçirildi ki, bu tarixi görüş həmin dövlət sənədinin medianın inkişafında yeni bir mərhələnin başlanğıcını qoyduğunu bir daha təsdiqlədi.***

# Dövlət-media birliyinin qürurverici nümunəsi

## *Naxçıvanda media ictimai fikrə təsir göstərən qüdrətli vasitə kimi yeni inkişaf mərhələsinə qədəm qoyur*

Ali Məclis Sədrinin də media nümayəndələri ilə görüşdə vurğuladığı kimi, Fondun yaradılması zamanın tələbi idi. Bu tələbi muxtar respublikada fəaliyyət göstərən çeşidli kütləvi informasiya vasitələrinin, 400-dən çox jurnalisti əhatə edən media ordusunun vahid təşkilatlanma, mərkəzləşdirilmiş və düzgün istiqamətləndirilmiş idarəetmə zərurətini yaratmışdı. Muxtar respublikamızın beynəlxalq nüfuzunun artması nəticəsində ona dünyəvi marağın, Naxçıvanla bağlı informasiyaya olan beynəlxalq tələbatın günbəgün çoxalması da bu zərurəti reallığa çevirmişdi. Eyni zamanda Naxçıvanda siyasi idarəetmə sistemində artıq məqsədyönlü təşkilatlanma ilə inkişafa, tərəqqiyə nail olma baxımından fondlaşdırma, kompleksləşdirmə təcrübəsi yaranmışdır. Hazırda Gənclər Fondunun, Bilik Fondunun, bu günlərdə yaradılan Elmin İnkişafı Fondunun fəaliyyətlərinin uğurlu nəticələr verməsi kütləvi informasiya vasitələri sahəsində də bu məsələni bütün aktuallığı ilə gündəmə gətirmişdi. Belə bir fondun yaradılması üçün mediadakı hərtərəfli baza – istər çeşid və kəmiyyət, istərsə də professional qüvvə, maddi-texniki təchizat formalaşdırılmışdı. Lakin muxtar respublikada medianın bugünkü inkişafına heç də asanlıqla nail olunmayıb, jurnalistika informasiya blokadası dövründən yüksək səviyyəli informasiya təminatı mərhələsinə qədər ağır, çətin və mürəkkəb yol keçib.

### *Informasiya blokadasına qarşı mübarizənin Naxçıvan modeli*

Çoxəsrlik tarixə, dövlətçilik ənənələrinə malik, Avropa və Asiya qitələrinin qovuşduğu, Şərqə açılan qapı, Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvan xüsusi siyasi-strateji əhəmiyyətli bir məkan kimi XX əsrin sonlarında informasiya marağı və tələbatı baxımından da dünyanın diqqət mərkəzində olub. Azərbaycanın yenicə müstəqillik əldə etdiyi, qədim diyarımızın erməni işğalı ilə üz-üzə qaldığı keşməkeşli bir dövrdə muxtar respublikamız təkcə ərazi blokadası deyil, həm də informasiya blokadası məngənəsinə salınmışdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən ümummilli lider Heydər Əliyev informasiya blokadasını maksimum səviyyədə yarmağa çalışmış, müxtəlif media orqanları ilə əlaqələrin yaradılmasına xüsusi əhəmiyyət vermişdir. Ulu öndərin ən ağır şəraitdə belə, Naxçıvana gələn müxtəlif kütləvi informasiya vasitələrinin təmsilçilərinə diqqət ayırıb onlara verdiyi tarixi müsahibələr Naxçıvanın haqq səsini dünyaya çatdırmaq kimi mühüm mərama xidmət edirdi. Lakin kifayət qədər informasiya resurslarının, yaradıcı potensialın, normal iş şəraitinin olmaması bu prosesi ləngidirdi.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə yenidən rəhbərliyə gəlişindən sonra, xüsusilə də 1996-cı ildən etibarən Naxçıvanda başlayan ümumi inkişaf və tərəqqi kütləvi informasiya vasitələrinin fəaliyyətinə də öz təsirini göstərməyə başladı. 2003-cü ildə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən Beynəlxalq Qlobal İnformasiya və Telekommunikasiya Şəbəkəsinə qoşulmanı təmin etmək məqsədilə Naxçıvanda yeni internet provayder xidməti – *nakhchivan.az* abunəçilərin istifadəsinə verildi ki, 2006-cı ildən etibarən *nakhinternet.az* olaraq fəaliyyətinə davam edən xidmət bu gün daha geniş informasiya mübadiləsi imkanlarına malikdir. 2005-ci ilin iyun ayında Naxçıvanın Trans-Asiya-Avropa fiber-optik magistral xəttinə qoşulması ilə informasiyanın daha sürətli axınını təmin etmək imkanı əldə olundu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 5 aprel tarixli Sərəncamı



ilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzi yaradıldı. "Naxçıvanın səsi" radiosunun 2006-cı il yanvar ayının 17-dən etibarən *www.nakhchivan.az* üzərindən yayıma başlaması isə muxtar respublikada özəl media qurumlarının fəaliyyəti istiqamətində daha bir mühüm addım oldu. 2015-ci il iyun ayının 15-dən etibarən Naxçıvanda "Naxçıvan xəbərləri" informasiya saytının istifadəyə verilməsi (*naxcivanxeberleri.com*) informasiya blokadasının yarılmasına xidmət etməyə başladı. Naxçıvan mediasında özünəməxsus yeri olan Naxçıvan Dövlət Televiziyası və Radiosu da bu proseslərin əsas iştirakçılarındandır. İnformasiya böhranının ağır və məşəqqətli illərində Naxçıvan televiziyası 2-3 saat efirə çıxa bilirdisə, bu gün həmin efir vaxtı mərhələ-mərhələ artırılaraq 19 saata çatdırılıb. Naxçıvan teleradiosu ölkəmizdə ilk dəfə HD yayıma keçdi, 2011-ci ildən etibarən isə muxtar respublikada rəqəmsal yayım tətbiq olundu. 2016-cı ildən isə Naxçıvan televiziyasının internet üzərindən yayımı təşkil edildi, internet saytı istifadəyə verildi. 2018-ci il muxtar respublikanın media həyatında ilk informasiya agentliyinin – "Nuhçıxan"ın fəaliyyətə başlaması ilə əlamətdar oldu. Bu gün həmin agentlik Naxçıvanla bağlı 3 dildə informasiya yayımı həyata keçirir.

Bu gün, demək olar ki, muxtar respublikanın bütün mərkəzi icra hakimiyyəti orqanlarının internet saytları fəaliyyət göstərir. Onu da qeyd edək ki, informasiya təminatında başlıca rol oynayan, müasir, etibarlı internet saytlarının yaradılması istiqamətində də muxtar respublikada artıq zəngin təcrübə əldə edilib, bacarıqlı mütəxəssislər formalaşıb.

Vaxtilə, 1999-cu ildə yalnız Naxçıvan Kompüter Mərkəzində 8 abunəçi ilə internetə qoşulma imkanı əldə edilməsi böyük hadisə hesab edilirdisə, bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrinin fiber-optik kabel xətti və sürətli internetlə, İP televiziya və rəqəmsal yayımla təmin olunması informasiya-məlumatlandırma işinin səmərəliliyini xeyli artırıb. Əvvəllər Naxçıvana qarşı dezinformasiyalar çoxalmaqda idisə, bu gün həmin informasiyaları təkzib etmək, Naxçıvan həqiqətlərini dünyaya çatdırmaq məqsədilə sosial şəbəkələrdə yaradılan, yüzlərlə həmfikri ətrafında birləşdirən qrupların sayı artmaqdadır. Bu gün informasiya təminatının kəmiyyət və keyfiyyətini yüksəltmək üçün paytaxtda fəaliyyət göstərən media orqanlarının bölgə müxbir postları yaradılıb.

Bu gün muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafı ilə bağlı görülən mühüm əhəmiyyətə malik işlərin nəticəsidir ki, Universitet Televiziyası və "Nuhçıxan" radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio, "Şərq qapısı" qəzeti, şəhər və rayon qəzetləri, ali təhsil və elm müəssisələrinin qəzet və jurnalları, "Nuhçıxan" İnformasiya Agentliyi, Naxçıvan Mətbuat Şurası, Televiziya və Radio Şurası, mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri fəaliyyət göstərir, ümumilikdə, kütləvi informasiya vasitələrində çalışanların sayı 400-ə yaxındır. Yeri gəlmişkən qeyd edək ki, qazanılan uğurların təməlində Ali Məclis Sədrinin xüsusi qayğı və təşəbbüsü ilə muxtar respublikada aparılan jurnalistika sahəsi üzrə kadr hazırlığının da mühüm rolu var. 2001-ci ildə Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisasının fəaliyyətə başlaması bu istiqamətdə atılan əhəmiyyətli addım idi. 2005-ci ildən etibarən isə universitetdə jurnalistika ixtisasları üzrə magistr hazırlığı da uğurla davam etdirilir. Universitet məzunlarının bu gün media sahəsində mühüm postlarda uğurla fəaliyyət göstərə bilməsi peşəkar jurnalist kadrların yetişdirilməsi və işə cəlbinə dövlət qayğısının təzahürüdür.

Bir əsrə yaxın tarixə malik "Şərq qapısı" qəzeti də Naxçıvanın əsas mətbu orqanı, operativ və düzgün informasiya təminatçısı olmaqla, bu illər ərzində daim muxtar respublika həyatının müxtəlif istiqamətlərini işıqlandırmaqdadır. Qəzet, xüsusilə də XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanın haqq səsinin eşidildiyi əsas tribunaya çevrilmişdi. 1993-cü ildən sonra öz inkişafının yeni mərhələsinə qədəm qoyan "Şərq qapısı"nın beynəlxalq informasiya məkanına çıxış əldə etməsi uzun illər ərzində qəzetin fəaliyyətində kəmiyyət və keyfiyyət dəyişikliklərinə xidmət edən addımların atılmasından sonra mümkün olub. Belə ki, 2012-ci ilin 17 dekabrında *www.serqqapisi.az* internet ünvanı ilə "Şərq qapısı" qəzeti dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlayıb. Bu gün Naxçıvandan dünyaya rəsmi təsdiqlənmiş dəqiq informasiya ötürən "Şərq qapısı" qəzeti vasitəsilə Naxçıvan həqiqətləri daha geniş ictimaiyyətə çatdırılır. Əgər əvvəllər digər saytlardan onlayn rejimdə yalnız audioinformasiya almaq mümkün idisə, bu gün "Şərq qapısı"nın saytı vasitəsilə izləyici Naxçıvanla bağlı istənilən informasiyanı sənədli şəkildə, istənilən zamanda almaq imkanı əldə edib. Beləliklə, qlobal informasiya məkanına çıxış bu mətbu orqanın üzərinə düşən məsuliyyəti daha da artırıb. Bu il qəzetin internet saytı tamamilə yenilənib, həm funksio-




nallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılıb.

Hazırda "Şərq qapısı"nın yenilənmiş saytının izləyici sayı 10 minə yaxındır. Naxçıvan televiziyası və "Nuhçıxan" İnformasiya Agentliyi dünyanın 140 ölkəsindən izlənilir. 2019-cu ilin avqust ayında isə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının *preslib.az* internet saytında Naxçıvan Muxtar Respublikası barədə fəaliyyət göstərən eyniadlı elektron layihə ən çox izlənilən resurslar arasında ilk yerlərdədir, muxtar respublika ilə bağlı bölməyə 52 mindən çox baxış qeydə alınıb. Eyni zamanda "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin 2018-ci ildə UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi, "10-cu Van Şərqi Anadolu Beynəlxalq Turizm və Səyahət Sərgisi"ndə Ermənistanın iştirakdan imtina etməsinə nail olmağımız da muxtar respublikada görülən digər tədbirlərlə yanaşı, həm də düşünülmüş, məqsədyönlü informasiya siyasətinin uğurlu nəticələridir. Bütün bunlar isə təsdiq edir ki, Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanmaqla təkcə ərazi-iqtisadi blokadasını deyil, informasiya blokadasını da aradan qaldırmaqda nümunə gücünə malikdir.

### *Jurnalistikanın inkişafına xidmət edən hərtərəfli dövlət qayğısı*

Muxtar respublikada jurnalistikanın inkişafına hərtərəfli dövlət qayğısı, maddi-texniki bazanın gücləndirilməsi, jurnalistlərin düzgün ideoloji istiqamətləndirilməsi, onlara sərbəst yaradıcılıq imkanları verilməsi ilə nail olunub.

Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamı mətbuatın inkişafına öz töhfəsini verib. Muxtar respublikanın bütün mətbuat orqanlarının normal fəaliyyəti üçün əlverişli şərait yaradılıb. 2010-cu ildən etibarən "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi müasir maddi-texniki bazaya malik bir binada fəaliyyət göstərir. Bu bir reallıqdır ki, muxtar respublikanın qəzet və jurnalları bəzi ölkələrin mətbuatından çox-çox yüksək poliqrafik keyfiyyətlə nəşr olunur. Bu tədbirlərin davamı olaraq 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınıb. 2019-cu ilin ötən dövrü ərzində də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilib.

Ali Məclis Sədrinin mətbuat işçiləri ilə keçirdiyi görüşlər, jurnalistlərin problemləri ilə müntəzəm maraqlanması, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı həyata keçirdiyi ardıcıl tədbirlər, əməkhaqlarının artırılması bu sahənin inkişafı üçün geniş imkanlar açır. Muxtar respublikada kütləvi informasiya vasitələri sahəsində çalışanların dövlət mükafatları ilə təltif olunması jurnalist əməyinə verilən qiymət kimi onları yeni yaradıcılıq nailiyyətlərinə daha da həvəsləndirir. Kütləvi informasiya vasitələrinin fəaliyyətinin təşkili sahəsində görülən bu işlərin ən mühümü isə muxtar respublika rəhbərinin verdiyi dəyərli tövsiyə və tapşırıqlar, müəyyənləşdirdiyi fəaliyyət prinsipləridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr" mövzusunda 2017-ci il yanvarın 28-də keçirilən müşavirə mətbuatı yeni mərhələdə inkişafa, jurnalistləri ölkəmizin maraqlarına xidmət edən materiallar hazırlamağa, internetin imkanlarından yararlanaraq geniş təbliğat işləri aparmağa sövq edib. Bu da Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılmasına geniş imkanlar açır. Naxçıvan mediasının dünyada nümunəvi bir modelə çevrilməsi istiqamətində atılan növbəti addım isə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması oldu.

### *Yol düzgün seçiləndə və ya mühüm vəzifələrlə yeni uğurlara doğru*

Fondun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə təsdiq olunmuş Nizamnaməsindən də aydın olduğu kimi, bu qurum muxtar respublikada fikir, söz və məlumat azadlığını, plüralizmi inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq kimi ali məqsədlərə xidmət edəcək. Eyni zamanda Fond tərəfindən cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı genişləndirmək, jurnalistlərin peşəkarlıqlarını, məsuliyyətlərini artırmalarına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən, habelə kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsini və inkişafını

*Ardı 3-cü səhifədə*

dəstəkləyən proqramları, layihələri və digər tədbirləri maliyyələşdirmək, kütləvi informasiya vasitələri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi məqsədilə təkliflər vermək, fikir, söz və məlumat azadlığı sahəsində araşdırmalar aparılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində tədbirlər həyata keçirmək də nəzərdə tutulur. Fondun idarə edilməsi və təşkili məqsədilə müvafiq fərmanla müşahidə şurası da təsdiq olunub.

Ali Məclisin Sədri şuranın ilk iclasında demişdir: ***“Sosial-iqtisadi inkişaf, ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi cəmiyyətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsini, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsini zəruri edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da muxtar respublikanın mətbuat tarixində yeni inkişaf mərhələsinin əsasını qoymuşdur. Fondun fəaliyyətinin təmin olunması kütləvi informasiya vasitələrində keyfiyyət dəyişiklikləri ilə müşahidə olunmalıdır”.***



Fondun müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüş də gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək baxımından əlamətdar oldu. Savadlı və peşəkar bir kadr və elə yeri gəlmişkən, Naxçıvan Dövlət Universitetinin yetirməsi Fondun müşahidə şurasının sədri seçildi. Görüşdə 2020-ci ildə milli mətbuatımızın yaranmasının 145 illiyi münasibətilə jurnalistlər arasında yaradıcılıq müsabiqəsinin, qəzetlərdə təcrübəli jurnalistlərin iştirakı ilə seminar-treninqlərin keçirilməsi, kütləvi informasiya vasitələri əməkdaşlarının ziyalılarla görüşünün təşkil edilməsi ilə bağlı təkliflər səsləndirildi. Ali Məclisin Sədri Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurası tərəfindən təkliflərin nəzərə alınması və icrası barədə tapşırıqlar verdi.

Ali Məclisin Sədri demişdir: ***“Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fəaliyyəti qısa müddətdə təmin edilməli, yeni layihələr hazırlanmalı və müsabiqələr keçirilməli, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlıq gücləndirilməlidir. Jurnalistlərin peşə davranış qaydaları ilə bağlı tövsiyələr hazırlanmalı, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən kütləvi informasiya vasitələri haqqında informasiya bankı yaradılmalıdır”.***

Heç şübhəsiz ki, müşahidə şurası öz fəaliyyəti ilə gələcəkdə bir sıra mühüm vəzifələrin icrasında müstəsna rol oynayacaq. Gənc jurnalist kadrlarla, mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri ilə, ictimaiyyətlə yerlərdə görüşlərin keçirilməsi, təlimat və metodik, məlumat və tövsiyə xarakterli nəşrlərin, elmi-praktik tədbirlərin həyata keçirilməsi jurnalistikanın inkişafına öz töhfəsini verəcək.

Ali Məclisin Sədri media nümayəndələri ilə görüşdə kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliklərinin müşahidə olunduğunu bildirməklə yanaşı, qarşıda duran vəzifələrdən də danışaraq qeyd etdi ki, ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu dövlət müstəqilliyimizi möhkəmləndirmək, Azərbaycanımızın və muxtar respublikamızın inkişafında yaxından iştirak etmək ulu öndərin ideyalarına sədaqət, milli mənafelərin və dövlətçilik siyasətinin ardıcıl təbliği, vətənpərvərlik hər bir jurnalistin başlıca vəzifəsi olmalıdır. Mühüm vəzifələrimizdən biri də tamaşaçı və dinləyicilərə yüksək səviyyəli proqramlar təqdim etmək, oxunaqlı qəzet nəşrinə nail olmaq məqsədilə peşəkarlıq səviyyəsini yüksəltməkdir. Auditoriyanın marağının nəzərə alınması, balanslaşdırılmış proqram siyasəti, yüksək efir mədəniyyəti, ictimai maraqlara xidmət, hadisələrə operativ və obyektiv münasibət bildirmək hər bir əməkdaş üçün müqəddəs peşə məramına çevrilməlidir. Normativ-hüquqi aktların, qəbul olunmuş dövlət proqramlarının icrası ilə bağlı maarifləndirici və analitik materiallar hazırlanmalıdır.

Ali Məclisin Sədri demişdir: ***“Bu gün Naxçıvan Dövlət Televiziyası və Radiosu, eləcə də “Şərq qapısı” qəzeti həm də internetdə yayımlanır. “Nuhçıxan” İnformasiya Agentliyinin saytında gün ərzində davamlı informasiyalar, videomateriallar və müəllif yazıları yerləşdirilir. Bu, informasiyaların daha geniş kütləyə çatdırılması baxımından əhəmiyyətli olsa da, eyni zamanda böyük məsuliyyət deməkdir. Təqdim olunan materiallar elə hazırlanmalıdır ki, onlar oxucu, tamaşaçı, dinləyici və izləyici toplaya bilsin”.***

Kütləvi informasiya vasitələri saytlarını, rayon qəzetlərinin sosial şəbəkələrdəki səhifələrini mütəmadi yeniləməklə, informasiya yükünü artırmaqla Naxçıvanın operativ və fəal təbliğatçısına çevrilməli, operativ və dəqiq informasiya təminatı ilə diyarımız haqqında hər hansı qərəzli məlumatın yayılmasına yol verməməliyik. Bir jurnalist-vətəndaş kimi maraqlı və rəngarəng materiallarla folklorumuzu, tariximizi, etnoqrafiyamızı təbliğ etməli, milli dəyərlərimizə, maddi-mədəni irsimizə sahib çıxmağı bacarmalıyıq.

Ali Məclisin Sədri mətbuatın inkişafında kadr hazırlığı məsələsinin rolunu xüsusilə qeyd edərək keyfiyyət dəyişikliyinə nail olmaq üçün peşəkar kadr təminatı yaratmaq kimi mühüm vəzifədən də bəhs edib. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün Jurnalistika ixtisası tələbələrini redaksiyalarla fəal əməkdaşlığa cəlb etməli, təkmilləşdirmə kursları və ustad dərslərinin təşkilində yaxından iştirak etməliyik. Kütləvi informasiya vasitələrinin ictimai tribuna kimi funksiyasını gücləndirmək üçün elmi-ictimai mühiti, ziyalıları kənar müəllif kimi fəal əməkdaşlığa cəlb etməli, mütəxəssis fikirlərinin ictimaiyyətə təqdim olunmasına diqqəti artırmalıyıq. Fəal vətəndaş mövqeyimizlə, medianın təbliğat gücündən istifadə yolu ilə cəmiyyət quruculuğunda yaxından iştirak etməli, cəmiyyətin inkişafına çalışmalıyıq.

Ali Məclis Sədrinin tapşırıqlarına əsasən müasir informasiya cəmiyyəti quruculuğunda qarşıda duran əsas məsələlərdən biri kimi dövlət orqanlarının mətbuat xidmətləri ilə əlaqələrin daha da möhkəmləndirilməsinə nail olmalıyıq. Kütləvi informasiya vasitələrinin maarifləndirmə funksiyasını gücləndirməli, gənclərin milli ideologiya, hərbi-vətənpərvərlik ruhunda tərbiyəsinə xidmət edəcək, oxunması zəruri olan kitabların əhəmiyyətini aça biləcək, doğma diyarımızın zəngin turizm potensialını dünyada tanıdacaq materialların sayını artırmalıyıq.

Ali Məclis Sədrinin jurnalistlərə Naxçıvanın müasir inkişafının təbliğatçısı olmaqla bağlı bu günümüzün tarixini olduğu kimi yazmaq, muxtar respublikada gedən quruculuq işləri, aparılan sosial-iqtisadi islahatları geniş əks elətdirmək, internet mediası və sosial şəbəkələrin imkanlarından maksimum istifadə etmək kimi tapşırıqları əsas fəaliyyət istiqamətlərimiz olmalıdır. Teleradiodakı audiovizual təqdimat funksiyasını mətbuatda yerinə yetirən fotojurnalistikanı inkişaf etdirmək (yeri gəlmişkən, gələcəkdə müşahidə şurası tərəfindən bu məqsədlə fotomüsabiqələr də təşkil etmək olar) başlıca vəzifələrdən olmalıdır.

Ali Məclis Sədrinin ictimaiyyətə çatdırılan hər bir informasiyanın dəqiq və əsaslı olması ilə bağlı tapşırıqlarını icra etmək üçün istənilən materialın hazırlanmasında istinad ediləcək kifayət qədər məlumat nəşrləri, elmi mənbələr mövcuddur və onların əksəriyyəti muxtar respublikamızda nəşrə hazırlanır. Hər bir jurnalist araşdırıcı, tədqiqat xarakterli materialları hazırlamaq üçün mütaliə dairəsini genişləndirməli, qədim diyarımızla bağlı elmi-kütləvi nəşrləri izləməli və fəal təbliğatçısına çevrilməlidir.

### *Qürur anları...*

Hər bir jurnalist üçün fəaliyyətinin sonrakı prioritet istiqamətlərini müəyyənləşdirmək baxımından böyük məktəb qədər əhəmiyyətli olan bu görüş Ali Məclis Sədrinin media nümayəndələrinə xitabən dediyi ***“Sizinlə qürur duyuram!”*** sözləri ilə tarixə həkk olundu. Bu, biz jurnalistlərin əməyinə verilən ən ali dəyərdir. Ömrünü-gününü muxtar respublikanın dünənki qədimliyini, bugünkü çiçəklənməsini, gələcək intibahını tərənnüm etmək kimi ülvi bir məqama həsr edən jurnalistlər üçün bütün mükafatların, təltiflərin fövqündə duran bir qiymətdir bu... Bu qürurvericilik, əslində, Naxçıvanın müasir inkişafının müəllifi olan QURUCU RƏHBƏRLƏ bu düşünülmüş siyasəti fəxarət və qürurla təbliğ edənlərin, salnamələşdirənlərin ümummilli mənafelərə, Vətənə xidmət yolunda ideal bir birliyindən doğan qürurvericilik idi! Bu qürurvericiliyin əsl səbəbi bu gün muxtar respublikada istənilən sahədə nail olunan inkişafın, tərəqqinin jurnalistikada sonsuz ilham və ideya mənbəyi, mövzu qaynağı olmasıdır. Gəlin fəxarətlə etiraf edək ki, jurnalistika nə qədər operativliyə nail olsa da, diyarımızda aparılan quruculuq, inkişaf prosesinin sürəti ilə ayaqlaşa bilməyəcək. Medianın fəaliyyətinə verilən yüksək dəyər isə həm də böyük etimad və şərəfli məsuliyyətdir. Bu etimadı layiqincə doğrultmalı, bundan sonra da qədim diyarımızın dinamik inkişaf strategiyasının, düşünülmüş uğurlu siyasətinin təbliği istiqamətində səy göstərməli, jurnalistikanın inkişafı üçün qarşıya qoyulan mühüm vəzifələri rəhbər tutaraq fəaliyyətimizi bu vəzifələrin icrası – müasir jurnalistikanın tələbləri səviyyəsində qurmağa çalışmalıyıq.

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## ASKEF rəhbəri: “Yaşadığı yeri bu qədər sevən və təmiz tutan naxçıvanlılara, sadəcə, həsəd apardıq”

***Türkiyənin məşhur Avrasiya Sənət Kültür və Elm Federasiyasının (ASKEF) nümayəndələri yaxın günlərdə Naxçıvanda olublar. Türk dünyasının müxtəlif ölkələrində mədəniyyət və incəsənətlə bağlı layihələr həyata keçirən qurum üzvləri muxtar respublikada qarşılaşdıqları maraqlı və yaddaqalan məqamlar ilə bağlı** mamakhavadis.com **saytında fikirlərini bölüşüblər. Həmin rəy və fikirləri təqdim edirik:***



***Savaş Ünal – ASKEF rəhbəri:*** – Üç gün davam edən səfərimiz zamanı Naxçıvanda Əshabi-Kəhf mağarası, Duzdağ, Hüseyn Cavid məqbərəsi, Heydər Əliyev Muzeyi, Heydər Əliyev Sarayı və digər yerləri gəzdik. Nuh Peyğəmbərin türbəsi, Möminə xatın məqbərəsi və digər tarixi abidələri gəzən zaman bir şey hamımızın diqqətini çəkdi: Bu günə qədər gördüyümüz ən təmiz şəhərdəyik. Yerdə bir dənə də olsun tullantı yoxdur, hər yer olduqca təmizdir. Yaşadığı yeri bu qədər sevən və təmiz tutan naxçıvanlılara, sadəcə, həsəd apardıq.

***Demet Şahin – aktyor:*** – Naxçıvanı sözlə anlatmaq mümkün deyil, gərək bu hissləri yaşayasan. Buranın təbiəti böyük sevgi ilə qorunur. Bu məmləkət ulu babalarına, torpağına, bayrağına sevdalı, gözəl ürəkli insanları, tərtəmiz ətraf mühiti ilə insana rahatlıq verir. Həmişə belə qal, canım Naxçıvan, sevgilərlə!

***Umut Tutcu – tələbə:*** – Naxçıvan təbii gözəllikləri ilə mənə çox təsir etdi. Sadəcə, gözəlliyi deyil, ondan da artıq əfsunlayıcı bir coğrafiyası var Naxçıvanın. Görülməsi mütləq lazım olan bir məkandır. Xüsusilə də insanların sənətə verdiyi dəyər məni çox sevindirdi. Çünki mədəniyyətin ən yüksək mərtəbəsi incəsənətdir və bu mərtəbədə Naxçıvandan olan ziyalıların izi görünməkdədir. Addım atdığım hər yerdə keçmişin izlərinə rast gəldim. Hər yerində bir səmimiyyət gördüm. Şəhərin gözəl ürəkli insanları, sizi heç unutmayacağam.

***Qonca Aydemir – şair-publisist:*** – Gözəlliklər ölkəsi... Haqqında nə desəm azdır. Gözəl insanları ilə daha da gözəlləşir Naxçıvan. Tarixinə, mədəniyyətinə sahib çıxan dostlarıma çox təşəkkür edirəm.

***Fərid Baran – şərhçi:*** – Sol tərəfdə Ali Məclis, qarşısında Nazirlər Kabineti, onların ortasında isə teatr binası... Dünyanın başqa hansı ölkəsində sənətə və sənətçiyə bu qədər qiymət verirlər. Sadəcə, şəhərlər və digər yaşayış məntəqələri deyil, dağları və yolları da tərtəmizdir. Yağışın altında çantalarımı daşımağıma məmnuniyyətlə kömək edən ziyalı, gözəl qəlbli, tərtəmiz insanlar. Səhər tezdən səkidə unutduğum pul və sənədlərim olan çantamı günortadan sonra minlərlə insanın keçib getdiyi yerdə əl vurulmamış şəkildə tapıram. Bəli, oğurluğun olmadığı Naxçıvandan bəhs edirəm. Piyada keçidləri, qarşıdan-qarşıya rahat keçməyimiz üçün gözləyən maşınlar, mədəni sürücülər. Kaş ki bir az gənc olardım və daha əvvəl gələrdim bura, qalan ömrümü bu təmiz diyarda və dürüst insanların arasında keçirərdim. İnşallah, yenidən gəlmək bir daha qismət olar.

***Necla Aslan – müəllim:*** – Naxçıvan gördüyüm ən gözəl türk şəhəridir. Çoxmərtəbəli olmayan binaları, təmiz memarlığı məni çox heyrətləndirdi. Qonaqpərvər insanları ilə seçilən, ən önəmlisi də, tarixinə sahib, keçmişinə sadiq bir şəhərdir. Yaşamaq istədiyim şəhərdir. Bu gəzintimizdə tanıdığım insanlara minnətdaram, güman edirəm, yenə gələcəyəm.

***Zühal Gedikoğlu – təqaüdçü:*** – Mən də Naxçıvanı çox sevdim. Təmiz, insanları hörmətcil, qonaqpərvərdirlər, tarixinə sahib çıxmağı bacarırlar.

***Göksenin Cakmak – sənətçi:*** – İndiyə qədər gördüyüm ən təmiz və gözəl şəhərdir. Tarixinə sahib çıxan və qoruyan bir şəhər. Cəmiyyət olaraq qonaqlarına hörmətlə yanaşmaq işində də nümunədirlər. Məncə, gedib yaşanılacaq ideal bir şəhərdir. Naxçıvana salam və sevgilərlə...

***“Nuhçıxan” İnformasiya Agentliyi***

## Beynəlxalq turizm və səyahət sərgisi başa çatıb



*Türkiyə Respublikasının Van şəhərində 26-29 sentyabr tarixlərdə ənənəvi olaraq keçirilən “10-cu Van Şərqi Anadolu Beynəlxalq Turizm və Səyahət Sərgisi” başa çatıb.*

16 ölkədən 350 şirkətin iştirak etdiyi sərgidə Naxçıvan Muxtar Respublikası da nümayəndə heyəti ilə təmsil olunub.

Artıq 10-cu ildir, keçirilən sərgidə Ermənistanın saxta, oğurluq mədəniyyətinin nümayiş etdirilməsinin qarşısı nümayəndə heyətimiz tərəfindən alınıb. Ermənistan öz yalançı və saxta mədəniyyətini, turizmini Azərbaycan Respublikasının nümayəndə heyəti tərəfindən ifşa olunacağını bildiyi üçün bu il sərgidə iştirak etməkdən imtina edib.

Ölkəmizin ilk dəfə olaraq iştirak etdiyi sərgidə “Naxçıvan Muxtar Respublikası” stendi, diyarımızın turizm potensialı ilə bağlı videoçarxlar sərgi iştirakçılarının marağına səbəb olub. Həmçinin Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən hazırlanmış 1000-ə yaxın turist marşrutlarının bukletləri və diyarımızın turist xəritəsi sərgi iştirakçılarına təqdim olunub.

Muxtar respublikada istehsal olunan yerli məhsullarımızdan “Sirab”, “Badamlı”, duz və Naxçıvanın digər brend məhsulları beynəlxalq sərgidə nümayiş etdirilib. Sərgi iştirakçılarına Naxçıvan Muxtar Respublikasının turizm potensialı barədə ingilis və türk dillərində geniş məlumatlar verilib, görüşlər keçirilib.

**Xəbərlər şöbəsi**

Təhsil millətin gələcəyidir

# Müasir mərhələdə peşəkar müəllim hazırlığı qarşıya mühüm vəzifələr qoyur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsilə göstərdiyi diqqət və qayğı, pedaqoji kadr hazırlığındakı təkmilləşmələr, təhsilin məzmununa dövrün tələbləri baxımından yanaşılması, fənn kurikulumları və təhsil standartlarının tətbiqi, yeni texnologiyalara tədris prosesində geniş yer verilməsi, distant təhsilin reallaşdırılması, beynəlxalq təcrübədən yaradıcı şəkildə istifadə olunması bu sahənin inkişafına stimul verib.***



Bu gün muxtar respublikamızda təhsilin bütün sahələri özünün yeni inkişaf dövrünü yaşayır. O baxımdan ali təhsilin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində muxtar respublikamızın ali təhsil müəssisələri dünyanın qabaqcıl universitetləri səviyyəsində güclü infrastruktura malikdir. Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinin nümunəvi kampus modeli və yüksək maddi-texniki imkanları regionun ali təhsil tarixinin ən parlaq nailiyyəti kimi qiymətləndirilir. Bu ali təhsil müəssisələrində yeni təlim texnologiyalarının və qlobal tədris proqramlarının səmərəli tətbiqi bölgəmizə gələn əcnəbi tələbələrin sayının artmasına ciddi surətdə təsir göstərib. Eyni zamanda Naxçıvan Müəllimlər İnstitutunun yeni tədris korpusunda fəaliyyətə başlaması regionda yüksəkixtisaslı pedaqoji kadrların hazırlanmasına öz töhfəsini verməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə bu təhsil ocağının formalaşdırılması, onun müstəqil ali məktəbə çevrilməsi, elmi-pedaqoji kadr potensialının zənginləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrinin yaradılması, respublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanıdılması istiqamətində bir sıra işlər görülmüşdür. Bu gün Naxçıvan Muxtar Respublikasında bakalavriat və magistratura səviyyələrində İbtidai sinif müəllimliyi, Məktəbəqədər təlim və tərbiyə, Təhsildə sosial-psixoloji xidmət, Psixologiya ixtisasları üzrə kadr hazırlığı yalnız bu ali məktəbdə aparılır. Bundan başqa, muxtar respublikadakı 3 ali məktəb arasında əlavə təhsilin bütün istiqamətləri üzrə hazırlıq yalnız burada həyata keçirilir. İnstitutda ixtisasartırma və yenidənhazırlanma üzrə ayrıca bölmə vardır. Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində fəaliyyət göstərən orta ixtisas təhsili, ümumtəhsil, məktəbəqədər təlim-tərbiyə, məktəbdənkənar tərbiyə müəssisələrində çalışan təhsil işçilərinin davamlı peşəkar inkişafını təmin etmək üçün əlavə təhsilin göstərilən istiqamətləri üzrə sistemli iş aparmaq məhz bu ali məktəbə həvalə edilib. Çünki peşəkar müəllim olmadan pedaqoji proses uğurla tamamlana bilməz. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, savadlı və milli dəyərlərin daşıyıcısı olan vətənpərvər gənclər yetişdirməliyik. Muxtar respublikada mövcud təhsil infrastrukturu bu vəzifənin icrası üçün bütün əsasları yaradır. Lakin müəllim əməyi olmadan, peşəkar təhsil kollektivi formalaşdırmadan yaradılan təhsil infrastrukturu faydalı iş müstəvisinə keçirilə bilməz".*** Məhz bu amillər nəzərə alınaraq tələbələrin rəqabətqabiliyyətli və geniş dünyagörüşlü mütəxəssis kimi yetişdirilməsi, vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi üçün institutda kompleks tədbirlər həyata keçirilməkdədir. Özünün strateji inkişaf planında keyfiyyətli təhsil mühiti yaratmaqla rəqabətqabiliyyətli pedaqoji kadr hazırlığına nail olmağa çalışan institutda müəllim hazırlığı sahəsində bir sıra hədəflər prioritet olaraq müəyyənləşdirilib.

Məktəb tarixi sübut edir ki, müəllimlik sənəti digər peşə sahələri kimi zamana görə yeni məzmun qazansa da, bütün dövrlərdə bu sənətin tək gücü öyrətdiyi qədər olub. Bu gün isə müəllim məhdud sərhədlər və çərçivələr üçün deyil, konkret desək, bəşər üçün lazım olan şəxsiyyəti yetişdirməyi bacarmalıdır. Çünki sabahın gənc şəxsiyyətinin əmək bazarı, eyni zamanda dünyadır.

*Müəllim, ilk növbədə, peşəsini sevməlidir.* Müəllimlik peşəsinə yiyələnmək üçün şəxsiyyətin psixoloji, nəzəri imkanları və motivasiya vəziyyəti çox önəmlidir. Bu peşə sahəsi ilə maraqlanan gənclər hələ məktəb illərində konkret ideal təsəvvürlərə malik olmalı, davranış və həyat amalında dəqiq hədəf seçimini özü üçün aydınlaşdırmalıdır. Bu gün bizim qarşımızda duran ümdə vəzifə sabahın müəllimlərinə düzgün ixtisas seçimində yardımçı olmaqdan ibarətdir. Təəssüf ki, bir sıra hallarda müəllimlik ixtisaslarının seçimində, sadəcə, ali təhsil almaq həvəsi düzgün karyera seçimini üstələyə bilir. Bu zaman müəllimlik peşəsini sevdirməyin yollarını tapmaq bizi ciddi düşündürür.

*Müəllim peşəkar psixoloq olmalıdır*. Psixologiya müəllimə hər zaman lazım olur, çünki müəllim şagirdlərlə təmasda olduğu zaman psixoloji durumlarda necə hərəkət edəcəyini bilməlidir. İlk növbədə, müəllim uşaqların yaş və fərdi xüsusiyyətlərinə dərindən bələd olmalıdır. Müəllimi psixoloji biliklərsiz təsəvvür etmək mümkün deyildir.

Hər şeydən əvvəl, müəllim dərin müşahidə qabiliyyətinə malik olmalı, şagirdlərinin bütün müsbət və mənfi cəhətlərini görməli, onların irəliləyişlərini və geriliyini dərhal duymalı, suallarını cavabsız qoymamalıdır. İkincisi, müəllim dərin analitik təfəkkürə malik olmalı, baş verən bütün situasiyaları, o cümlədən şagirdlərin irəliləmə və geriləmə səbəblərini, onlara təsir edən amilləri təhlil edə bilməli və müvafiq nəticələr çıxarmağı bacarmalıdır. Üçüncüsü, müəllim tədris prosesini yüksək emosional fonda, şagirdləri maraqlandıra biləcək səviyyədə, onları rahat emosional-psixoloji şəkildə yeni biliklər kəsb etməyə ruhlandırmalıdır. Dördüncüsü, müəllim şagirdlərin düşüncəsinə, hisslərinə, fikirlərinə, ideya və istəklərinə hörmətlə yanaşmalı, onları qiymətləndirməyi özündə tərbiyə etməli, humanizmin yüksək səviyyəsinə malik olmalıdır.

Müasir müəllim qarşısındakı şagirdin gələcəyini görməyi də bacarmalıdır. Darvin, Eynşteyn və başqa tanınmışlar heç də orta məktəbdə parlaq şagirdlər olmayıblar.

Müasir müəllim bütün yeniliklərdən xəbərdar olmalı, daim təkmilləşməyə önəm verməlidir. Çalışqanlıq, davamlı dinamizm bu peşədə təkmilləşməni şərtləndirən əsas amillər sayıla bilər. Çağdaş dünya təhsilində bir sıra metodik qaydalar artıq kompüter vasitəsilə həyata keçirilir.

Müasir mərhələnin ən mühüm təhsil trendlərindən biri ucqar kənd və ya şəhər mərkəzində yerləşməsindən asılı olmayaraq, bütün məktəblərin bərabər təminata malik olmasıdır. Minnətdarlıq hissi ilə qeyd etməliyik ki, Naxçıvan Muxtar Respublikasında bu formul uğurla həyata keçirilib.

Son illərdə ölkəmizdə təhsil sistemində elektron dərslik, vasitə və resursların geniş şəkildə tətbiqi, təhsil müəssisələrinin kompüter avadanlıqları ilə təmin olunması, müəllimlərin diaqnostik qiymətləndirilməsi, yerdəyişməsi, tələbə transferi, birinci siniflərə qəbul kimi layihələr məhz İKT-nin geniş tətbiqinə əsaslanır.





*Müasir müəllim yeni təlim texnologiyalarına dərindən bələd olmalıdır:*

– Ənənəvi dərsdə təlim müəllim-dərslik-şagird paradinamikası ilə qurulurdusa, müasir dərsdə şagird-dərslik-müəllim paradinamikası üstünlük təşkil edir və şagirdlərin hərtərəfli inkişafı təmin edilir. Belə ki, dərsdə gözlənilən nəticə, əsasən, alınır, dərs şəxsiyyətyönümlü olur, inkişafetdiricilik əsas meyar kimi nəzərdə tutulur.

*İctimai mənafe anlayışı və cavabdehlik hissinin formalaşdırılması şəxsiyyətyönümlü təhsil islahatının əsas hədəflərindən biridir.* Hər bir cəmiyyətin inkişafı orada ictimai mənafenin qorunma dərəcəsindən asılıdır. Bu mənada, müasir müəllim həm də bütün varlığı ilə ictimai mənafe daşıyıcısı olmalıdır. Ümummilli lider Heydər Əliyev müəllimin əməyini yüksək qiymətləndirərək deyirdi: ***"...Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".***

*Müəllim üçün ən vacib keyfiyyətlərdən biri humanistlikdir.* Humanistliyi olmayan müəllim tələbkarlıqda nəyəsə nail olsa da, şagirdlərinin qəlbinə yol tapa, onların sevgi və rəğbətini qazana bilmir. Unutmamalıyıq ki, müəllim milli şüuru inşa edən sosial mühəndisdir. O, dövlətimizin və millətimizin mənəvi təhlükəsizliyini qoruyan mənəviyyat keşikçisidir. Dövlət rəmzləri və atributlarının öyrədilməsi tədris etdiyi fənnin növündən asılı olmayaraq, hər bir müəllimin borcudur. Bir halda ki, söhbət şəxsiyyət formalaşdırmaqdan gedir, bu zaman vətənpərvərlik tərbiyəsi öndə durur. "Təhsil haqqında" Qanunda təsbit olunduğu kimi, "Müəllimin vəzifəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və Azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir".

*Dərsin mövzusu yox, onun çatdırılma üsulu və mühiti önəmlidir.* Bu günün müəllimi təkcə bilik ötürməklə, hazır şablonu yazıb tələbənin yaddaşında saxlaması ilə kifayətlənməməlidir. Daha çox düşünməyi öyrənmək məqsədilə bilik aşılamalıdır. Dərsi maraqlı edən təkcə mövzunun bütün təfsilatı ilə çatdırılması deyil, onun hansı üsul və metodologiya ilə ötürülmə keyfiyyətidir.

Müasir müəllimin təlim fəaliyyətinə daxil olan şərtlərdən biri də yeni dərsi sinifdə mənimsətməkdir. Bu isə müəllimdə *"öyrənməyi öyrətmək"* qabiliyyətinin olmasının göstəricisi hesab edilir. Hazırda bir sıra qabaqcıl dünya ölkələrinin təhsil sistemlərində ev tapşırıqları yoxdur.

*Müəllim mütaliə etmədiyi gün "ölür".* Nəzərə almalıyıq ki, müasir şagirdin məlumat əldə etmək imkanları az qala müəlliminkindən çoxdur. Şagirdlərindən geri qalmamaq üçün müəllim üzərində işləməyi özünün başlıca vəzifəsi hesab etməlidir. Bu baxımdan kitabların oxunmasının zəruriliyinin dövlət səviyyəsində təbliğ və təşviq olunması tam zamanındadır, obyektiv maraqlar çərçivəsində yüksək əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixdə imzaladığı "Oxunması zəruri olan kitablar" haqqında Sərəncamı ilə təqdim olunan kitablar və zaman-zaman bu siyahıya yeni əsərlərin əlavə edilməsi oxucu zövqünün sistemli formalaşdırılması ilə yanaşı, mütaliəyə olan marağı gündən-günə artırmaqdadır.

"Pedaqoji fikir tarixindən" adlı kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən 10 min nüsxədən ibarət nəfis şəkildə tərtib olunaraq pedaqoji ictimaiyyətə təqdim edilib. Kitabda pedaqoji fikir tarixində mühüm əhəmiyyəti olan pedaqoji-didaktik mətn nümunələrinin seçilib yerləşdirilməsi oxunaqlılıq baxımından və tərbiyəvi əhəmiyyətinə görə tədqiqatçılıq səriştəsi ilə ümumiləşdirilmiş mənbə kimi diqqətimizi çəkməkdədir. Həmin kitabın "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilməsi bu siyahını zənginləşdirməklə yanaşı, müəllimlik fəaliyyətinə, pedaqoji prosesə dövlətimizin yüksək qayğısını ifadə edir.

*Müəllim şagirdlərinin mənəvi dünyasının memarı olmalıdır.* Pedaqoji işdə mənəviyyatın rolu daha böyükdür, ona görə ki, burada əxlaqın özü pedaqoji funksiyaları yerinə yetirir. Xalqımıza məxsus milli-mənəvi dəyərlərin qorunması sahəsində şagirdlərin tərbiyələndirilməsi, onlara nizam-intizam, şagird davranışı, geyim mədəniyyəti, müəllim-şagird-valideyn münasibətlərində mövqeyi, böyüklərə hörmət, kiçiklərə qayğı prinsiplərinə riayət etməsi və digər müsbət vərdişləri aşılamaq son dərəcə vacibdir.

*Müəllim-şagird münasibətləri əməkdaşlıq müstəvisində qurulmalıdır.* Bunun üçün, ilk növbədə, müəllimlərdə bir sıra qabiliyyətlərin olması zəruri tələb kimi qarşıya qoyulur. Bu məsələ ilə bağlı müasir pedaqogikada da xeyli araşdırmalar aparılıb və müəyyən nəticələrə gəlinib.

Göründüyü kimi, müasir müəllimin hərtərəfli inkişafı üçün hər cür maddi-texniki və qanunvericilik imkanları yaradılıb. Hər il ali məktəblərə qəbul imtahanının yekunları və ali təhsil müəssisələrinin nüfuzunun gücləndirilməsi istiqamətində əldə edilmiş nəticələr təsdiq edir ki, Naxçıvan Muxtar Respublikasında təhsil islahatları uğurla davam etdirilir. Bütün bu nailiyyətlər müəllim məsuliyyətini daim artırmalı, göstərilən etimada uyğun daha innovativ metodlara üstünlük verməliyik.

**Elbrus İSAYEV**
***Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent***

## "Erasmus+" layihəsinin təbliği ilə bağlı təlim

*"Naxçıvan" Universitetində keçirilən təlimdə muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin əməkdaşları və bir qrup tələbələri iştirak edib.*

Universitetin rektoru, professor İsmayıl Əliyev Avropa strukturlarının təhsil sahəsində həyata keçirdikləri layihələri və azərbaycanlı gənclər üçün yaradılmış bu cür imkanları müsbət hal kimi dəyərləndirib.

Milli Erasmus ofisinin rəhbəri Pərviz Bağırov bildirib ki, 150 tərəfdaş ölkəni birləşdirən "Erasmus+" layihəsinə beynəlxalq əməkdaşlıq üçün 3 milyard avro vəsait ayrılıb. 2019-2025-ci illəri əhatə edəcək yeni "Erasmus+" layihəsi qabiliyyətlərin inkişaf etdirilməsi, kredit və dərəcə mobilliyi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, eyni zamanda kadr potensialının gücləndirilməsi kimi əsas fəaliyyət istiqamətlərini əhatə edir.

Milli "Erasmus+" ofisinin əməkdaşı Zəfər Həsənov tədbir iştirakçılarına layihənin əsas xüsusiyyətləri, Bakı Biznes Universitetinin əməkdaşı Gülşən Bayramova həmin layihənin sözügedən proqram çərçivəsində həyata keçirilən EQAC ("Azərbaycan universitetlərində keyfiyyətin təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi") layihəsi barədə məlumat veriblər.

"Naxçıvan" Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli muxtar respublikada, xüsusən də təmsil etdiyi ali təhsil müəssisəsində "Erasmus+" layihəsi ilə əməkdaşlıqdan, eyni zamanda onun inkişaf istiqamətlərindən, müəllim-tələbə mübadiləsindən bəhs edib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

✍ **Gülcamal TAHİROVA**

### İtmişdir

Nəsirov Habil Abdulla oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 672